# Ədəbiyyatımızın və milli mətbuatımızın cəfakeşi



***Ö**tən il Novruz bayramının son çərşənbəsi, martın 16-da həyatla vidalaşan Teymur müəllimi bizdən bir illik zaman ayırır. Cismən aramızda olmasa da, xeyirxah əməllərində, cild-cild dəyərli kitablarında, büdrəyəndə qolundan tutub qaldırdığı, arxa, dayaq olduğu insanların xatirələrində yaşayır Teymur müəllim. Hər gün anılır, xatırlanır...*

*Onu yaş, qocalıq qorxutmurdu, çünki onların heç birini yaxına buraxmır, doxsanında da gənclik enerjisilə yazıb-yaradırdı. Ömrünün sonunadək qələmi yerə qoymadı, ədəbiyyatşünaslıq və jurnalistika kimi iki mühüm cəbhədə paralel olaraq döyüşdü, çünki hər iki sahəni ürəkdən sevirdi. Onu ruhən cavan saxlayan da elə bu idi, yanaraq, sevərək, sevilərək yaşamağı bacarması...*

Teymur müəllimi hamı xeyirxah, cəsarətli, sözükeçən, ədalətli, tədbirli bir insan kimi tanıyırdı. Şəxsiyyətindəki bu mənəvi keyfiyyətlər onun elmi, ədəbi, publisist yaradıcılığına da təsir göstərmiş, ədalətsizliyə qarşı barışmazlıq, prinsipiallıq yaratmışdı. Haqq və ədalət yolunda tutduğu bu mövqe onun elmi, ədəbi yaradıcılığının ana xəttini təşkil edirdi.

Görkəmli ədəbiyyatşünas-alim Teymur Əhmədovun fəaliyyət dairəsi olduqca geniş idi, o, tədqiqatçı, publisist, tərtibatçı, elm təşkilatçısı, mətbuatımızın inkişafında öz sözünü demiş mühərrir, ədəbiyyatşünaslıq sahəsində elmi kadrlar yetişdirmiş müəllim idi...

Teymur Əhmədov elmi yaradıcılığa başladığı gündən tariximizin qaranlıq səhifələrinin açılması, unudulmuş ziyalıların üzə çıxarılması, ən əsası ikili münasibətlərə, bəzi hallarda tənqidə məruz qalan şəxsiyyətlərin halal haqlarının qaytarılması istiqamətində fəaliyyət göstərirdi. Hələ sovet dönəmində gənc ikən arxivlərin toz basmış kitablarını, tarixi sənədləri incələyib istədiyinə nail olur, əzəli düşmənimiz olan ermənilərin iç üzünü açıb göstərməkdən belə çəkinmirdi.

XX əsrin sonlarında soydaşlarımızın doğma torpaqlarından qovulması ilə heç cür barışmır, mətbuatda çıxışlar edir, dövlət rəhbərlərini məsələyə laqeyd qalmamağa çağırırdı.

Milli oyanış dövrü mətbuatının yaradıcısı olan Teymur Əhmədov redaktoru olduğu "Vətən səsi" qəzetində (1990-1991) yurdlarından didərgin düşmüş soydaşlarımızın səsini, sədasını ictimai mühitdə ucadan səsləndirir, hadisələri doğuran səbəblər, xəyanətkar ermənilərin gizli niyyətləri haqqında yazırdı: "Tarixdə misli görünməyən kütləvi terror, sui-qəsd bağışlanılmazdır, erməni-daşnak quldurlarının bu cinayətinə hələ indiyədək siyasi qiymət verilməmişdir. Bu, Azərbaycan xalqının öz taleyi üçün narahatçılığına səbəb olmuşdur. Hər bir Qərbi azərbaycanlı bilməlidir ki, isti ata-baba ocağı, örüşlər, bərəkətli torpaq, doğma yurd, əcdadların müqəddəs məzarı kimsəsiz qala bilməz..." O, öz yazılarında eyni zamanda Azərbaycan xalqının mərdliyini, əyilməzliyini önə çəkir: "Bunu bizdən vətəndaşlıq borcumuz, qeyrətimiz, şərəfimiz olan əcdadlarımızın ruhu, doğma ocağımızın həsrəti, əzizlərimizin kimsəsiz qalan məzarı tələb edir" - deyərək soydaşlarımızda mübarizlik ruhunu alovlandırırdı.

Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Nəriman Nərimanovun həyat və fəaliyyətini əks etdirən namizədlik işinin müdafiəsi də ona o qədər asan başa gəlməmişdi. Teymur müəllim əsl Nərimanovçu idi, onu elmi ictimaiyyət belə tanıdı və belə qəbul etdi. Ömrünün sonuna qədər bu böyük dövlət xadiminin xalqı qarşısında xidmətlərini açıb göstərmək üçün əzmlə çalışdı, vaxtının azlığına, işinin, yaşının çoxluğuna baxmadı.

Teymur Əhmədov Nəriman Nərimanov ədəbi irsinin yorulmaz tədqiqatçılarından biri idi. Professor Yaşar Qarayev 60-cı illərin sonu 70-ci illərin əvvəlində Nəriman Nərimanova münasibətin hələ sabit olmadığı bir dövrdə onun dramaturgiyasını, ictimai-siyasi fəaliyyətini araşdıran Teymur müəllimin cəsarətini, qətiyyətini dəyərləndirərək yazırdı: "Ümummilli miqyasda etiraf və təsdiq olunan Nəriman Nərimanova o zamankı böyük abidə - müdrik dövlətçilik və rəhbər siyasi-ideoloji sahədə və səviyyədə monumental tunc heykəl, ədəbi-elmi aləmdə və fikirdə isə Vəli Məmmədovun və Teymur Əhmədovun əsərləri oldu".

O, bütün elmi fəaliyyətini Nəriman Nərimanov yaradıcılığını öyrənməyə, onun "millətə xidmət etmək", "insanpərvərlik" amallarını xalqa çatdırmaq məramına yönəldərək bu böyük insanın irsinin tədqiqatçıları arasında öndə gedənlərdən biri olmuşdu.

XX əsrin əvvəllərində Azərbaycan mətbuatında önəmli yet tutan Əlibəy Hüseynzadənin xalqının azadlığı uğrunda mübarizəsi onu bütün türk dünyasının mücahidinə çevirmişdi. 1906-cı ildə nəşrinə başladığı "Füyuzat" jurnalı dövrünün mühüm hadisələrindən biri idi. Jurnal türk xalqlarının ictimai-siyasi və bədii şüur tarixində turançılığın, türkçülüyün siyasi sənədi və mədəni abidəsi kimi tanınmışdı. "Füyuzat" ləfzən feyzin cəmi olub rifah və bərəkətə, bolluğa, maddi və mənəvi nemətlərin bolluğuna... dəlalət edirsə də, fəqət əsl məfhumunun mənası səadət və ələlxüsus səadəti-mənəviyyədir..." - deyən Əlibəy Hüseynzadə məhz bu məramla yola çıxıb XX əsrin ilk onilliyində Azərbaycanda füyuzatçılıq adlı ədəbi, siyasi məktəb yaratmışdı.

Düz 100 il sonra Teymur Əhmədovun bu jurnalı yenidən nəşr etdirməyə başlaması bir tərəfdən o məktəbin davamçısı olmaq istəyindən qaynaqlanırdı. Bu, həm də Əlibəy Hüseynzadə irsinə, şəxsiyyətinə hörmət və ehtiramın təcəssümü idi. "Füyuzat"dan "Füyuzat"a varislik gəldi, milli irs, mədəni tarix gəldi. "Füyuzat" "Füyuzat"la birləşdi. Gələcəyə feyzlərlə, ətirlərlə, milli duyğu, milli hisslə, milli təpər, milli güclə, milli birlik, həmrəyliklə yola "düşdü", XXI əsr mətbuat tarixində "Böyüklərin əkdiyi ağacın meyvəsi" kimi oxucusuna feyz dadızdırdı.

Sovetlər dönəmində "Füyuzat" və onun məfkurə daşıyıcıları təqiblərə, təhqirlərə məruz qalsalar da, Azərbaycan xalqının çətinliklə əldə etdiyi müstəqilliyinin bərpasından sonra mətbuat da azadlığa çıxdı. "Füyuzat"a, onun yaradıcılarına bəraət verildi. Yaşar Qarayev, Əziz Mirəhmədov kimi tədqiqatçılar Əlibəyin ayrı-ayrı əsərlərinə ön söz yazdılar. Namizədlik və doktorluq işini Əlibəyə həsr edən Ofelya Bayramlı bu əsərləri və "Füyuzat"ı transliterasiya edərək çap etdirdi. "Füyuzat"ın təkrar nəşri isə ən böyük hədiyyə oldu.

Teymur Əhmədov vətənpərvər ziyalı, alim, tədqiqatçı idi. Ömrünün sonuna qədər Azərbaycan həqiqətlərinin ictimaiyyətə çatdırılmasına xidmət etdi. "Füyuzat"ın, "Respublika" qəzetinin səhifələrində arxivlərdə əldə etdiyi tarixi sənədlərə, faktlara əsaslanan yazılarla Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu sübut etməyə çalışır, bəzən yanlış mövqedə duran əli qələmlilərə də doğru yol göstərirdi. Vətən müharibəsindəki möhtəşəm qələbəmiz onun yazıb-yaratmaq həvəsini bir az da artırmış, cəsarətləndirmişdi: "Təəssüflər olsun ki, "bəzi azərbaycanlı təhlilçilər" və "siyasi opponentlər" mühakimə yürütdükləri siyasi proseslərin mahiyyətindən bixəbərdilər. Onlar 1923-cü ildə Dağlıq Qarabağa muxtar vilayət statusunun millətçi erməni xuntası tərəfindən verildiyini bilmirlər" - deyən Teymur müəllim yazırdı: "...Reallıq budur ki, Paşinyan "Qarabağ dərsləri"ndən bir nəticə çıxarmasa, Ermənistanı ağır böhrandan çıxara bilməyəcəkdir. Türksoylu xalqın cihadı qarşısıalınmaz tufan kimi hər bir maneəni yox etmək qüdrətinə malikdir. "Dəmir yumruq" əməliyyatı bu fikri təsdiq etdi".

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda qadınların ictimai fəallığının parlaq nümunələri mövcuddur. "İşıq" ilk qadın jurnalının işıq üzü görməsi də həmin dövrə təsadüf edir. Cəmi iki il ömür sürən "İşıq" jurnalı əslində, demokratik dəyərlərə istiqamətlənmişdi, lakin qadın emosionallığı, indi deyildiyi kimi, müəlliflərin passionarizmi, ona aydın ifadə olunmuş inqilabi istiqamət verirdi...

2012-ci ildə Teymur müəllimin təsisçiliyi ilə "İşıq-qadın" jurnalına da yeni həyat, nəfəs verildi və o, qısa zamanda qadınların sevimli jurnalına çevrildi (xatırladaq ki, "İşıq" adlı jurnal 1911-1912-ci illərdə nəşr olunurdu).

Milli İrsi Mədəni Tarixi Araşdırmalar (MİMTA) Fondunun təsis etdiyi "Füyuzat" jurnalı fəaliyyətə başladığı gündən Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, taleyüklü məsələlərinə xüsusi diqqət yetirir, son dərəcə maraqlı, aktual, elmi-tədqiqat səviyyəli məqalələri ilə oxucuların diqqətini cəlb edirdi. Doğma dilini sevən, onun saflığı, qorunması işində fəal mübariz olan Teymur müəllim "Füyuzat"ın nömrələrində də dilçi alim və mütəxəssislərin vaxtaşırı yazılarını verir, özü də dillə bağlı çıxışlar edirdi. "Füyuzat"ın 2014-cü il 79-cu sayında jurnalın redaksiya heyətinin "Azərbaycan dili: dünən, bu gün, sabah" mövzusunda keçirdiyi dəyirmi masada respublikanın tanınmış alim və tədqiqatçılarının çıxışları verilib. Baş məqalədə oxuyuruq: "Füyuzat" jurnalının səhifələrində Azərbaycan dili məsələlərinə toxunulub, məqalələr dərc edilsə də, bu problemə görə ayrıca simpoziumun keçirilməsinə ehtiyac yaranmışdı. Qarşıya qoyulan məqsəd keçmişdə, müstəqillik bərpa edildikdən sonra Azərbaycan dilinin vəziyyəti və inkişafı barədə müəyyən təsəvvür yaratmaq, onun müasir durumuna, zənginləşməsi prosesinə görkəmli dilçi alimlərin münasibətlərini, arzu və tövsiyələrini öyrənməkdir".

Özü isə dilimiz haqqında yazırdı: "Azərbaycan xalqı doğma dilinə sədaqətli xalqdır. Keçmişdə tarixin ictimai təlatümlərinə məruz qalan xalqımız şifahi ədəbi dilini qoruyub saxlamış, onu inkişaf etdirmişdir. Eyni zamanda XVII-XVIII əsrlərdə yeni dilin - Azərbaycan ədəbi dilinin formalaşmasına ciddi təsir göstərmişdir. Şah İsmayıl Xətainin hakimiyyəti və Azərbaycan Xalq Cümhuriyyəti dövrlərində Azərbaycan dili rəsmi dil kimi işlədilmişdir. XX əsrin əvvəllərindən ruslaşdırma siyasətinin təsirinə baxmayaraq, Azərbaycan dili dövlət dili olaraq inkişaf etməyə başlamışdır".

Səmərəli fəaliyyətinin nəticəsi olaraq Teymur Əhmədov dövlət və elmi ictimaiyyət tərəfindən dəfələrlə fəxri fərman və medallarla mükafatlandırılmışdı. 90 illik yubileyi münasibətilə "Şöhrət" ordeninə layiq görülmüşdü.

Yazıçı Əlibala Hacızadə vaxtilə yazırdı: "Mənə qalsa, indi, yaşadığımız bu çətin və mürəkkəb şəraitdə ziyalılarımızı iki qrupa bölmək olar: danışan ziyalılar və iş görən ziyalılar.

Teymur ikinci qism ziyalılardandır. Onu tribunalarda, mitinqlərdə odlu-alovlu nitqlər irad edən görə bilməzsən. O, başını aşağı salıb, şöhrət axtarmadan, iddiasız və təmənnasız, yeganə silahı olan qələminə sarılaraq əməli iş görür. Nədir onun işi? Yazmaq yaratmaq!..".

Bəli, Vətən, xalq üçün çalışmaq, təmənnasız iş görmək Teymur müəllim üçün həmişə yaradıcılıq mənbəyi oldu və bu amal onun bütün həyatını işıqlandırdı. Bu işıqdan, bu nurdan hamıya pay düşdü. Qəbri nurla dolsun!..

**"Respublika".**